# CÜMHURİYYƏT TARİXİMİZƏ YENİ NƏZƏRİ-METODOLOJİ DƏYƏRLƏR MÜSTƏVİSİNDƏ

Filologiya elmləri doktoru, professor Asif Rüstəmli mətbuat tariximizin peşəkar tədqiqatçısıdır. Şərəfli alim ömrünü publisistikamızın öyrənilməsinə həsr edən alimin "Zirədən başlanan yol (Mirzə Bala Məhəmmədzadənin həyatı, yaradıcılığı və mühiti)" adlı ("Gənclik," 2018) monoqrafiyası da bu silsilədən yazılmış dəyərli əsərdir. Belə ki, alimin gərgin axtarışlarının nəticəsi olaraq ərsəyə gəlmiş bu kitabda bir yazıçı-publisist Mirzə Bala Məhəmmədzadənin həyatı və yaradıcılıq yolunu genişliyi ilə izləyirik.

Bildiyimiz kimi, Azərbaycan Xalq Cümhuriyyətinin parlaq simalarından olan Mirzə Bala ictimai-siyasi xadim, yazıçı olmaqla yanaşı, həm də dövrünün alovlu naşiri-publisisti kimi də alovlardan keçmişdir. Bu yolda özünü, el dilincə desək, "hələ-şəhid" edən (həlak şəhid edən) vətənpərvər ziyalı olmuşdur. Bu cəhətdən, onun "Gənclər yurdu" (1918) məcmuəsindəki redaktorluq fəaliyyəti, habelə "İstiqlal" (1922-1923) qəzetinin nəşri sahəsindəki yazılmaz və əzmkar xidmətləri sistemli və əhatəli halda ilk dəfə prof A.Rüstəmlinin bu kitabında Azərbaycan oxucusunun diqqətinə çatdırılır. Əlbəttə, bu ciddi əhəmiyyət daşıyan kitabın bütün uğurları müəllifin gərgin elmi araşdırmalarının, zəngin arxiv materiallarını fədakarcasına üzə çıxarmasının hesabına olmuşdur.

AYB-nin katibi, yazıçı-kinodramaturq İlqar Fəhmi "İstiqlal mücahidi" adlı ön sözdə A.Rüstəmlini başqa Cümhuriyyət tədqiqatçıları ilə birlikdə "tarixin qaranlıq səhifələrinə işıq salan" fədakar alim və ziyalı kimi yüksək şəkildə qiymətləndirərərk yazır "Və yalnız ötən əsrin səksəninci illərinin sonundan başlayaraq, tarixin qaranlıq səhifələrinə işıq salınmağa başladı. Adı onilliklər boyu qara siyahıda olmuş Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli və sair cümhuriyyətçilərimiz kimi, Mirzə Bala Məhəmmədzadənin də həyat və fəaliyyətini daha dərindən araşdırmaq və öyrənmək imkanları yarandı..."

İlqar Fəhminin göstərdiyi kimi, "mifik bir rəvayət formasında" olan məlumatlar kitabda gerçəkliyə çevrilmiş tarixi həqiqət olaraq Asif Rüstəmlinin gərgin zəhməti hesabına müxtəlif arxiv sənədləri əsasında açılıb üzə çıxarılır. Ancaq bir məqamıda qeyd edək ki, elə Mirzə Bala Məhəmmədzadə mifik rəvayətə bənzəyən namümkünlərin öhdəsindən fərasəti, bacarığı, qorxmazlığı, vətənpərvərliyi sayəsində gəlməyi bacarmış və bu səbəbdən də onun bu fədakarlıqları həm də mifik görünə biləcək dərəcədə heyrətamizlik yaratmışdır. Özünü oda-közə vurmaq, el-oba, vətən, xalq yolunda özünü "həlak-şəhid etmək" fədakarlığı bir vətənpərvər ziyalı kimi M.B.Məhəmmədzadənin yaşam düsturu idi ki, biz bu kimi həqiqətləri də məhz professor Asif Rüstəmlinin təqdimatı fonunda aydın görürük.

A.Rüstəmlinin kitabı "Zirə - tarixin közərən ocağı" oçerki ilə başlamağı təsadüfi deyildir: "Min illərdir zirəlilər Günəşi ilk qarşılayan, çöhrələrində və ürəklərində işıq, nur gəzdirən Azərbaycan türkləridir". Müəllif məhz çöhrəsində və ürəyində nur gəzdirənlərdən biri - Zirəli Mirzə Bala Məhəmmədzadəni yetirən-bitirən torpaq və mühit haqqında ilkin və dolğun məlumat verməklə təsəvvürümüzdə açıq-aydın bir həyat tablosu yaradılır.

Asif müəllim bunun ardınca "Məhəmmədzadələr nəsli" adlı bir oçerk verir. Bu da məntiqi baxımdan əvvəlki oçerkin davamıdır. Belə ki, əvvəlcə doğulduğu torpaq (yurd), sonra isə bitdiyi ağacın - nəsil şəcərəsinin haqqında məlumat azərbaycanlı düşüncəsi üçün insanın kim olduğunu tanımaqda ilkin açar rolunu oynayır. Bu baxımdan da biz müəllifin bizə təqdim etdiyi simanı dibdən-dəhnədən tanımaq imkanı qazanmış oluruq.

"Mirzə Bala Məhəmmədzadə ibtidai və ali-ibtidai məktəblərdə təhsil alarkən soyadı dərs jurnallarında, eləcə də ilk yazılarında "Məhəmmədov", rus dili qaynaqlarında isə "Mamedov" şəklində verilirdi. 1915-ci ildən sonra onun məqalələrinin imza yerində "Məhəmmədzadə Mirzə Bala" imzasına tez-tez rast gəlirik.

Bakı şəhər Alekseyev adına 3-cü Ali-ibtidai məktəbi 1914-cü ildə bitirən Mirzə Bala yaxın dostu Cəfər Cabbarzadə ilə 1915-ci ildə Bakı Sənaye (sonralar Politexnik adlandırılıb - A.R.) Məktəbinə daxil olurlar. Cəfər "Məktəb", "Qurtuluş", "Qardaş köməyi", "Tuti", "Babayi-Əmir" və b. məcmuələrdə, Mirzə Bala isə "Qurtuluş", "Doğru söz" və "Açıq söz" mətbuat orqanlarında davamlı çıxışlar edir, təhsil, tələbə həyatı, ədəbi-ictimai mühitdə müşahidə etdiyi problemlər barədə düşüncə və qənaətlərini oxucularla bölüşürdü.

Mirzə Balanın ilk bədii əsəri "Çoban Vəli" hekayəsidir. Bu əsəri o ilk dəfə "Bakı Sənaye Məktəbinin mütəllimi Mirzə Bala Məhəmmədov" imzası ilə "Qurtuluş" məcmuəsinin 16 noyabr 1915-ci il tarixli 4-cü sayında çap etdirmişdir. "Çoban Vəli" məcmuə müsabiqəsi üçün yazılmış, kənd həyatından bəhs edən, yığcam həcmə malik əsərdir. "Qurtuluş" məcmuəsinin redaktoru, görkəmli yazıçı-pub-




lisist Seyd Hüseynin münsifliyi ilə nəsr yarışı üzrə Mirzə Balanın "Çoban Vəli" hekayəsi və poeziya nominasiyası üzrə Cəfər Cabbarzadənin "Qürub çağı bir yetim" mənzuməsi jurnalın mükafatına layiq görülmüşdür.

"Çoban Vəli" hekayəsini avtobioqrafik əsər də adlandırmaq olar. Mirzə Bala babası Məhəmməd Həsən kişi haqqında ailədə eşitdiklərinin bədii ədəbiyyata gətirmişdir".

Göründüyü kimi prof A.Rüstəmli burada imza və soyad məsələsinə dəqiqlik gətirdikdən sonra ədibin yaradıcılıq qayəsinə diqqəti çəkir, çıxış etdiyi mətbu orqanlar barədə müfəssəl məlumat verir. Daha sonra da ilk bədii əsərinin adına, mövzu və məzmununa aydınlıq gətirir.

"Bədii və publisistik yaradıcılıq yolu seçmiş Mirzə Bala az vaxt içərisində ziyalılar, xüsusilə gənclər arasında böyük nüfuz qazanır, "Açıq söz"ün aparıcı mühərrirlərindən biri olur. İstiqlal mücadiləsində bu mətbuat orqanı ön sırada dayanırd", - deyə qeyd edən Asif Rüstəmli bununla müvazi olaraq M.B.Məhəmmədzadənin ictimai-siyasi fəaliyyətinə də toxunmuş, onun şəxsiyyət bütövlüyünü qədərincə tanıtmağa nail olmuşdur.

Müəllif "Cümhuriyyət dövrünün ilk məcmuəsi" adlı yazıda isə Mirzə Balanın publisist-naşir kimi fəaliyyətindən bəhs açıb yazır. "Gənclər yurdu" məcmuəsinin ilk sayı 1918-ci il iyulun 23-də Tiflisdə fəaliyyət göstərən "Şərq" mətbəəsində daş basması üsulu ilə işıq üzü görür. Bu nəşri Mirzə Balanın 20 yaşının tamam olmasına qeyri-adi töhfə də adlandırmaq olar. Dərginin ilk oxunduğu və yayıldığı məkan Tiflisin Müsəlman Qiraətxanası idi".

Fikir verin: 20 yaşlı bir gəncin fədakarlığına və ziyalılığına! Jurnalın baş məqaləsi haqda verilən hissəyə diqqət edək:

"Gənclərin böyük maraqla qarşıladığı jurnalın məramını əks etdirən baş yazısı Mirzə Balanın "Məqsədimiz nədir" məqaləsi ilə açılırdı. Redaktor jurnalın məramını qısaca olaraq belə bəyan edirdi: "Gürcüstanın paytaxtında nəşrə başlayan "Gənclər yurdu" türk məcmuəsinin əsas məqsədi və iqtisadi amalı Osmanlı, Azərbaycan, Tatarstan, Türkistan və Monqolstan kimi parçalara bölünmüş türk millətini bir yerdə görmək, Turan yurdunda yenidən diriltməkdir.

Fəqət başqaları ilə fərq budur ki, bundan ötəri qılınca, qurşuna, oda, yalova degil, ədəbiyyata, elmə, mədəniyyətə müraciət ediləcəkdir.

"Gənclər yurdu"nun fikrincə həyati-bəşəriyyə ancaq millətlərin tərəqqi və təlimləri ilə məmnundur.

Tərəqqi etmək mədəni bir millət olaraq elmi bəşəriyyətə xidmət yetirmək üçün hər millətə möhkəm bir lisan, mükəmməl bir ədəbiyyat, müstəqil bir mədəniyyət sahibi olmaq icab (lüzum, ehtiyac - A.R.) edər. Fəqət ədəbiyyat, ənənati-tarix, dil və mədəniyyətlə səfi mərbut olan bu türklük hissələri ümumi, sadə bir ədəbi xalq dilindən məhrum olduqlarından tarixdə dəfələrlə birləşib böyük türk imperatorluqları yapdıqlarına baxmayaraq bir yerdə yaşayamamışlar.

"Gənclər yurdu" zənn edir ki, birləşmiş bir türk milləti görmək üçün ümumi bir dil düzəltmək lazımdır. Türk qövmlərini mədəni cəhətcə birləşdirmək gərəgdir.

"Gənclər yurdu" bu məqsədlə öz səhifələrində türk dili, türk ədəbiyyatı, türk tarixi, türk sənayeyinəfisəsinə dair məlumatlar verəcək.

Anadolu, Azərbaycan, Türküstan, Krım, Tatarstan və Monqolstan türklərinin həyati-ictimaiyyə, siyasiyyə və mədəniyyətlərilə öz oxucularını tanış edəcək.

"Gənclər yurdu" tam mənasilə yeni fikir tərəfdarı olduğunu göstərmək üçün var qüvvəsilə milləti xalqdan ibarət biləcək, onun hüququnu, onun hakimiyyətini müdafiə edəcək, təki ədəbiyyat, mədəniyyət də xəlqiləşsin, daha qədim kimi mədəniyyət yalnız bəylərə, xanlara aid olmasun.

"Gənclər yurdu" bütün türk gənclərinə bir yurd olacaq səhifələrini cümlə gənclərə açacaq".

Onu da vurğulamağa ehtiyac duyulur ki, "Gənclər yurdu" Azərbaycan Cümhuriyyəti dövründə nəşr edilən ilk milli jurnaldır. Ayrı-ayrı istisnalar nəzərə alınmaq şərtilə bütün materialları demək olar ki, Mirzə Bala yazmışdır. Dərginin səhifələrində yer alan "Azərbaycan Cümhuriyyəti" məqaləsində M.B.Məhəmmədzadə çox ciddi problemlərə toxunmuş, öz düşüncələrini, qənaətlərini bildirməkdən çəkinməmişdir. O dövr üçün Mirzə Balanın toxunduğu ən qlobal problemlərdən biri yenicə istiqlalını elan edilmiş Cümhuriyyətimizin ərazisi, sərhəd məsələsidir".

Bizcə, burda qeyd olunanlar Mirzə Bala Məhəmmədzadənin kimliyi məsələsinə bir daha ətraflı işıq salır. Bu qədər ağır və məsuliyyətli bir yükün altına girmək və buna şərəflə daşımaq - fiziki və əqli cəhətdən tam sağlam və yetkin bir gəncin hünərdir. Onun Zirədən başlanan ömür tarixçəsi sərhədlər dolaşdı, qitələr aşdı və bütün və bütöv türk dünyasına yayıldı.

Bu zəkanın, bu qeyrətin qarşısında biz Mirzə Bala Məhəmmədzadəni mifik gücə malik mənəvi-fiziki intellekt sahibi kimi görüb heyrətə gəlirik. Bu heyrətamizliyi bizə həyat həqiqəti kimi təqdim edən professor Asif Rüstəmliyə isə ən səmimi təşəkkürümü çatdırırıq!

***Prof. Seyfəddin RZASOY***
***Dos. Şakir ALBALIYEV***